**Yeni Azərbaycan**. - 2024. - 15 mart. - № 49. - S. 5.

# BMT-nin 12-ci İqlim Dəyişikliyi Konfransı

## COP12 harada keçirilib?

**Günel Abbasova**

Birləşmiş Millətlər Təşkilatının 12-ci İqlim Dəyişikliyi Konfransı 2006-cı il 6-17 noyabr tarixlərində Keniyanın paytaxtı Nayrobidə keçirilib. Konfransda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflərinin 12-ci Konfransı (COP12) və Kioto Protokolunun Tərəflərinin ikinci Görüşü (MOP2) baş tutub.

Konfrasda baş tutan görüşlər boyu iqlim dəyişikliyi ilə bağlı çoxsaylı müzakirələr aparılıb. Konfransda Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annan bəyanat yayaraq bildirib ki, bir çox insanın hələ də inandığı kimi iqlim dəyişikliyi təkcə ekoloji problem deyil. Bu vəziyyət sağlamlıq üçün təhlükədir. Çünki daha isti bir dünya malyariya və sarı qızdırma kimi yoluxucu xəstəliklərin daha da sürətlə yayılacağı deməkdir. Temperaturun yüksəlməsi və uzun müddət davam edən quraqlıq münbit əraziləri otlaq və ya əkin üçün yararsız hala gətirdiyi üçün dünyanın ərzaq ehtiyatını da təhlükə altına qoya bilər.

Bununla yanaşı, dünya əhalisinin az qala yarısının yaşadığı Laqos və ya Keyptaun kimi sahil şəhərləri buzlaqların əriməsi nəticəsində dəniz səviyyəsinin qalxması səbəbindən su altında qalma təhlükəsi ilə üzləşə bilər. Bütün bunlar və daha çoxu bizi qarşıda gözləyir. Meşələr və mərcan rifləri kimi həyati vacib ekosistemlərin məhv edilməsi, duzlu suyun daxil olması səbəbindən su ehtiyatlarının məhv edilməsi və ya çirklənməsi və iqlim dəyişikliyi həm də sülh və təhlükəsizliyə təhdiddir. Məsələn, yağış rejiminin dəyişdirilməsi resurslar üçün rəqabəti artıra bilər və xüsusilə həssas bölgələrdə və ya qeyri-sabit siyasi vəziyyətin mövcud olduğu regionlarda potensial olaraq sabitliyi pozan gərginlik və miqrasiyanı sürətləndirə bilər. Bunun bəzilərinin artıq baş verdiyinə dair sübutların olduğu da bəyanatda qeyd edilib.

### BMT Baş katibinin bəyanatı

Baş katibin bəyanatında qeyd edilir ki, inkişaf etməkdə olan ölkələrdə emissiyalar nəzarətsiz artmağa davam edə bilməz: "Şübhəsiz ki, bir çox ölkələr iqlim dəyişikliyi ilə bağlı effektiv addımlar atdılar. Çin kimi sürətlə inkişaf edən ölkələr iqtisadi artımı enerji istifadəsindən ayırmaqda və beləliklə, öz iqtisadiyyatlarının emissiya intensivliyini azaltmaqda getdikcə daha uğurlu olurlar. Amma bu sahədə daha çox işlər görülməlidir. Özəl sektor da öz üzərinə düşəni edə bilər. Korporativ davranışdakı dəyişikliklər və özəl sərmayənin yönəldilməsi ən azı hökumətin iqlim müharibəsində qalib gəlməkdə atdığı addımlar qədər əhəmiyyətli olacaq. Əgər insanlar iqlim dəyişikliyi ilə bağlı bu gün olduğundan daha çox fəaliyyət göstərsələr və şirkətləri satınalma seçimləri ilə yaşıllaşdırmaya məcbur edə bilsələr, olduqca effektiv nəticə əldə etmək mümkündür. Bütün cəmiyyətlərimizin öz kursunu dəyişməsi üçün hələ vaxt var. İqtisadi cəhətdən özümüzü müdafiə etməkdənsə, siyasi cəhətdən daha cəsarətli olmağa çalışmalıyıq. Bu mənada Nayrobi Konfransı dünyanın siyasi liderlərinin iqlim dəyişikliyinə ciddi yanaşdığına dair aydın və inandırıcı siqnal göndərməlidir.

Konfransın sonunda COP12 çərçivəsində inkişaf etməkdə olan ölkələrə dəstək və təmiz inkişaf mexanizmi daxil olmaqla bəzi addımlar atıldı. Tərəflər inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinə uyğunlaşmasını dəstəkləmək üçün beşillik iş planı qəbul etdilər. Bununla yanaşı Uyğunlaşma Fondu üçün prosedur və üsulları razılaşdırdılar. Tərəflər təmiz inkişaf mexanizmi üçün layihələrin hazırlanması barədə də razılığa gəldilər.